# AZƏRBAYCAN RESPUBLİKASININ
# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN TABELİYİNDƏ
# DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

## 31 DEKABR 2020-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI
## VƏ
## AUDİT HESABATI

HLB Azerbaijan LLC
Nəsimi rayonu, Füzuli, 53/118, Bakı şəh., AZ1014

## AUDİTOR HESABATI

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXSİN İDARƏ HEYƏTİNƏ

## MALİYYƏ HESABATLARININ AUDİTİ ÜZRƏ HESABAT

### Şərti-Müsbət Rəy

Biz Dövlət Sosial Müdafiə Fondu Publik hüquqi şəxsin (bundan sonra "Fond") 6-54-cü səhifələrdə təqdim olunmuş 31 dekabr 2020-ci il tarixə maliyyə vəziyyəti, həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat, pul axınları haqqında hesabatları və mühüm uçot siyasətləri daxil olmaqla, maliyyə hesabatlarına qeydlərin auditini apardıq.

Bizim rəyimizcə, əlavə edilmiş maliyyə hesabatları Fondun 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti, həmin tarixdə başa çatmış il üçün maliyyə nəticələri və pul vəsaitlərinin axınlarını, "Şərti-müsbət rəy üçün əsaslar" bölməsində açıqlanan məsələlərin təsiri nəzərə alınmaqla, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS" və ya "İFRS") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli əks etdirir.

### *Şərti-müsbət Rəy üçün Əsaslar*

*İlkin qalıqlar və əlaqəli rəqəmlər*

İlkin qalıqların audit olunması bizim audit tapşırığına daxil olmadığından ilkin qalıqları ancaq cari ilin maliyyə hesabatlarına təsir edən sahələrdə yoxlamışıq. Ona görə də biz ilkin qalıqlar və açıqlandığı hallarda müqayisəli rəqəmlər, əlaqəli rəqəmlərin artan yekunla maliyyə hesabatlarına təsiri barəsində rəy verməmişik.

### *Diqqət Çəkən Məsələlər*

*Müqayisəli rəqəmlər*

Fond publik hüquqi şəxs kimi maliyyə hesabatlarını ilk dəfə hazırlayır və təqdim edir. Ona görə də maliyyə hesabatlarında müqayisəli rəqəmlər açıqlanmamışdır.

*Sığorta ehtiyatı*

Pensiya sistemində dövlət öhdəliklərinin icrası məqsədilə nəzərdə tutulan transfertin məbləği dövlət öhdəliklərini tam maliyyələşdirməyə kifayət etmədiyi üçün Fond 2020-ci ildə yaradılmış 287,044,792 manat sığorta ehtiyatlarını bu öhdəliklərin maliyyələşdirilməsinə yönəltmişdir. Hesabat ilindən əvvəlki dövrlərdə sığorta ehtiyatı məqsədləri üçün nəzərdə tutulan vəsaitlər dövlət öhdəliklərinin yerinə yetirilməsi məqdədləri üçün istifadə edilmiş və Fondun şərti öhdəliklərinin müəyyən edilməsində nəzərə alınmışdır.

*Torpaq, Tikili və Avadanlıqların ədalətli dəyəri*

Maliyyə hesabatlarında əmlak, torpaq və avadanlıqların 31 dekabr 2020-ci il tarixinə 54,155,407 manat ədalətli dəyəri Fond və Baker Tilly Audit Azərbaycan" QSC arasında bağlanılmış müqavilə əsasında peşəkar qiymətləndirici şirkət tərəfindən həyata keçirilmişdir və 31 may 2022-ci il tarixli qiymətləndirmə hesabatı təqdim olunmuşdur. Biz audit prosedurları həyata keçirərkən tələb olunduğu hallarda peşəkar qiymətləndiricinin hesabatına istinad etmişik.

**Rəy üçün Əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun aparmışıq. Bu standartlar çərçivəsində bizim məsuliyyətimiz audit hesabatlarının "Maliyyə hesabatlarının auditi ilə bağlı auditorun məsuliyyəti" bölməsində təsvir edilmişdir. Biz Peşəkar Mühasiblər üçün Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Mühasiblərin Etika Məcəlləsi (İESBA Məcəlləsi) ilə yanaşı, Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditi ilə bağlı qüvvədə olan tələblərə uyğun olaraq müstəqilik və biz digər etik tələblərlə bağlı məsuliyyətimizi bu tələblərə və İESBA Məcəlləsinə uyğun yerinə yetirmişik.

Biz rəyimizi əsaslandırmaq üçün kifayət qədər və uyğun sübutlar topladığımıza inanırıq.

**Əsas Audit Məsələləri**

Əsas audit məsələləri, bizim peşəkar mühakiməmizə əsasən cari dövrün ümumi təyinatlı maliyyə hesabatlarının auditi zamanı əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər bütövlükdə ümumi təyinatlı maliyyə hesabatlarının auditi nöqteyi-nəzərindən cavablandırılmışdır və bu səbəbə görə hesabatda əks olunmamışdır.

**Maliyyə Hesabatları üçün Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik MHBS tələblərinə uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradan ümumi təyinatlı maliyyə hesabatlarının hazırlanması, fırıldaqçılıq və ya səhvlər nəticəsində yarana bilən, təhriflər olmayan maliyyə hesabatlarının hazırlanmasını təmin edən daxili nəzarəti təşkil edir.

Maliyyə hesabatlarının hazırlanması zamanı Rəhbərlik Fondun davamlı fəaliyyət göstərmək imkanlarının qiymətləndirilməsi və davamlı fəaliyyətlə bağlı məsələlərin açıqlanması, Fondun sosial müdafiə sahəsində dövlət siyasətini icra edən orqan kimi davamlı fəaliyyətinə əsaslanan uçot sistemi qurulması üçün tədbirlər görür.

Rəhbərlik Fondun maliyyə hesabat verməsi prosesinin idarə edilməsi üçün tədbirlər görür.

**Maliyyə Hesabatlarının Auditi ilə bağlı Auditorun Məsuliyyəti**

Bizim məsuliyyətimiz maliyyə hesabatlarında bütövlükdə fırıldaqçılıq və ya səhvlər nəticəsində yaranan təhriflərin olmaması ilə bağlı əsaslandırılmış əminlik vermək və rəyimizi özünə daxil edən audit hesabatı verməkdir. Əsaslandırılmış əminlik yüksək dərəcəli əminlikdir, lakin BAS-a uyğun olaraq aparılmış audit həmişə əhəmiyyətli təhrifləri tam aşkar edəcəyinə təminat vermir. Təhriflər fırıldaqçılıq və səhvlər nəticəsində yarana bilər, fərdi və ya icmallaşmış maliyyə hesabatlarına əsaslanaraq çıxarılmış iqtisadi qərarlara təsir etdiyi hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin tərkib hissəsi kimi audit zamanı biz peşəkar mühakimə və ehtiyatlılıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və səhvlər nəticəsində yaranan əhəmiyyətli təhriflər riskini müəyyən edir və qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını hazırlayır, həyata keçirir və rəyimiz üçün əsas verən kifayət qədər və uyğun sübutlar toplayırıq. Fırıldaqçılıqdan yaranan təhriflərin aşkar edilməməsi riski səhvlərdən yaranan təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılıq, sövdələşmə, saxtakarlıq, qəsdən təhriflər, yalan məlumat vermək və ya daxili nəzarətdən yan keçmək hallarını əhatə edir.
- Fondun daxili nəzarətinin səmərəliliyi üzərində rəy vermək məqsədilə deyil, verilmiş şəraitə uyğun olan audit prosedurlarını hazırlamaq məqsədilə auditə uyğun olan daxili nəzarət haqqında məlumat toplayırıq.
- Tətbiq edilmiş uçot siyasətlərinin və mühasibat qiymətləndirmələrinin ağlabatanlığı və rəhbərlik tərəfindən verilmiş açıqlamaların uyğunluğunu qiymətləndiririk.

HLB Azerbaijan LLC
Nəsimi rayonu, Füzuli, 53/118, Bakı şəh., AZ1014

- Rəhbərlik tərəfindən davamlı fəaliyyətin uçotunun tətbiqinin uyğunluğu ilə bağlı nəticəyə gəlməli və toplanmış sübutlar əsasında Fondun davamlı fəaliyyət göstərməsinə mane olacaq hadisə və şəraitlə bağlı qeyri-müəyyənliklərin mövcudluğunu qiymətləndirməliyik. Biz əhəmiyyətli olan qeyri-müəyyənliklərin mövcud olması qənaətinə gəliriksə, audit hesabatında maliyyə hesabatlarının müvafiq qeydlərində olan açıqlamalara diqqəti cəlb etməliyik, və ya belə hallar olmadığından həmin məsələlər hesabatda əks olunmamışdır. Bizim nəticələr audit hesabatı tarixinə topladığımız audit sübutlarına əsaslanır. Audit hesabatı tarixindən sonra gələcəkdə baş verə biləcək hadisələr və şəraitlər bizim auditin predmetinə aid deyil.
- Açıqlamalar daxil olmaqla, maliyyə hesabatlarının təqdimatını, strukturunu və məzmununu qiymətləndirir və maliyyə hesabtlarının ədalətli və düzgünlüyünü təmin etmək məqsədilə əməliyyatlarla və hadisələrlə əsaslandırılmasını qiymətləndiririk.

Biz rəhbərliklə digər məsələlərlə yanaşı auditin miqyası, müddətini və audit zamanı aşkar edilmiş daxili nəzarətdə boşluqlar daxil olmaqla mühüm audit faktlarını müzakirə edirik.

Biz həmçinin rəhbərliklə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə əlaqədar bəyanat təqdim edirik və onlara müstəqilliyimizə təsir etməsi ehtimal olunan bütün əlaqələr və digər məsələlər, müvafiq olduğu hallarda isə onların qarşısını almaq üçün həyata keçirilən tədbirləri müzakirə edirik.

Rəhbərliklə müzakirə etdiyimiz məsələlərin tərkibindən cari dövrün maliyyə hesabatlarının auditi zamanı mühüm əhəmiyyət kəsb edən məsələləri müəyyən edirik və ona görə də bu məsələlər əsas audit məsələləri hesab olunur. Qanunvericilik həmin məsələləri ictimaiyyətə açıqlanmasını məqsədə uyğun hesab etmədiyi hallardan başqa, biz həmin məsələləri audit hesabatında açıqlayırıq.

**Digər Məsələlər**

Rəy daxil olmaqla, bu hesabat yalnız və yalnız Fond və Fondun tabe olduğu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim edilmək üçün hazırlanmışdır. Bu rəyi verməklə biz digər məqsədlər və ya hesabatı birbaşa və ya dolayı yolla əldə edən üçüncü şəxslər və tərəflər qarşısında hər hansı məsuliyyəti qəbul etmirik və ya qəbul etmək öhdəlyimizin olmadığını bildiririk.

HLB Azərbaycan

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti HLB Azərbaycan HLB Azerbaijan Limited Liability Company AZERBAIJAN REPUBLIC

HLB Azərbaycan MMC

3 noyabr 2022-ci il

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2020 | 31 dekabr 2019 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri | 6 | 261,225,058 | 215,383,720 |
| Materiallar və inventarlar | 7 | 493,667 | 780,513 |
| Sair cari aktivlər | 8 | 224,083 | 3,004 |
| | | **261,942,808** | **216,167,237** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar (TTA) | 9 | 54,155,407 | 26,208,210 |
| Qeyri-maddi aktivlər (QMA) | 10 | 2,439,923 | 2,534,711 |
| Dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsailtər | 11 | 2,401,121,484 | 1,395,270,688 |
| | | **2,457,716,814** | **1,424,013,609** |
| **CƏMİ AKTİVLƏR** | | **2,719,659,622** | **1,640,180,846** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Funksional fəaliyyətlə bağlı kreditor borclar | 19 | 5,557 | 23,115 |
| İşsizlikdən sığorta yığımları üzrə DMA qarşısında öhdəlik | 15 | 25,942,203 | 18,022,434 |
| Xüsusi vəsaitlər üzrə dövlət büdcəsinə borc | 20 | 632,338 | - |
| Xüsusi vəsaitlər üzrə ƏƏSMN-ə borc | 21 | 3,894,090 | 714,675 |
| Sair cari öhdəliklər | 22 | 333,509 | 82,913 |
| | | 30,807,697 | 18,843,137 |
| Mənfəət vergisi | 32 | - | - |
| | | **30,807,697** | **18,843,137** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Dünya Bankı qarşısında kredit üzrə öhdəlik | 23 | 612,968 | 1,012,773 |
| DB Krediti ilə bağlı dövlət büdcəsinə olan borc | 24 | 816,343 | 1,637,710 |
| | | **1,429,311** | **2,650,483** |
| **Cəmi öhdəliklər** | | **32,237,008** | **21,493,620** |
| **Kapital** | | | |
| Nizamnamə fondu | 25 | 5,000,000 | - |
| Əlavə kapital (yenidən qiymətləndirmə ehtiyatı) | 26 | 25,077,957 | - |
| Sığorta ehtiyatı | | - | - |
| Dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsailtər | 11 | 2,401,121,484 | 1,395,270,688 |
| Kapital ehtiyatları | | 256,223,173 | 223,416,538 |
| | | **2,687,422,614** | **1,618,687,226** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2,719,659,622** | **1,640,180,846** |

**Rəhbərlik adından**

**Himalay Məmişov**
**İdarə Heyətinin sədri**

**Ramil İbrahimov**
**Mühasibat uçotu departamentinin müdiri**

3 noyabr 2022
10-54 səhifələrdə əks etdirilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**

**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 2020 |
|---|---|---|
| **Daxilolmalar** | | |
| Məcburi Dövlət Sosial Sığorta haqları | 13 | 3,565,343,874 |
| Sanatoriya-kurort yollayışlarının dəyərinin ödənişi | | 761,200 |
| | | **3,566,105,074** |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayırmalar | 21 | (4,547,340) |
| Dövlət büdcəsinə ayırmalar | 20 | (632,338) |
| **Ayırmalar çıxıldıqdan sonar daxilolmalar** | | **3,560,925,396** |
| **Funksional xərclər** | | |
| Əhaliyə ödənişlərlə bağlı xərclər (pensiya və müavinətlər) | 16,17,19 | (4,586,953,924) |
| Sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirləri xərci | | (20,470,000) |
| Pensiya və müavinətlərin əhaliyə çatdırılması xərcləri | 18 | (16,405,360) |
| DOST agentliyinin müştərək maliyyələşdirilməsi xərci | 29 | (15,800,000) |
| | | **(4,639,629,284)** |
| **Əsas fəaliyyət üzrə profisit/(defisit)** | | **(1,078,703,888)** |
| Dövlət büdcəsindən daxil olan transfer | 11 | 1,177,914,030 |
| **Əsas fəaliyyət üzrə profisit/(defisit)** | | **99,210,142** |
| **İnzibati xərclər** | | |
| DSMF-nun saxlanılması xərci | 30 | (61,685,279) |
| Beynəlxalq təşkilatlara üzvlük haqqı ilə bağlı xərclər | 31 | (59,004) |
| Kreditin qaytarılması ilə bağlı faizlər və xərclər | 23 | (3,471) |
| TTA və QMA-n köhnəlməsi | 9 | (2,458,345) |
| | | **(64,206,099)** |
| Sair daxilolmalar | 33 | 4,342,988 |
| Sair xərclər | 33 | (18,621) |
| Akitvlərin əvəzsiz daxil olmasından gəlir | 34 | 17,878 |
| Akitvlərin verilməsindən və silinməsindən itkilər | 34 | (1,539,653) |
| | | **2,802,592** |
| **Vergidən qabaq mənfəət/(zərər)** | | **37,806,635** |
| Mənfəət vergisi | | - |
| **İl üçün mənfəət/(zərər)** | | **37,806,635** |
| **Digər məcmu gəlir və xərclər** | | |
| Yenidən qiymətləndirmə ehtiyatı | 26 | 25,077,957 |
| | | **25,077,958** |
| **İl üçün məcmu gəlir/(zərər)** | | **62,884,592** |

**Rəhbərlik adından**

**Himalay Məmişov**
**İdarə Heyətinin sədri**

**Ramil İbrahimov**
**Mühasibat uçotu departamentinin müdiri**

3 noyabr 2022
10-54 səhifələrdə əks etdirilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**

**KAPİTALIN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN**
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə Fondu | Əlavə Kapital /Yenidən qiymətləndirmə | Dövlət büdcəsindən transfer | Kapital ehtiyatları | Sığorta ehtiyatı | Cəmi Kapital |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2020-ci il tarixə qalıq** | **-** | **-** | **-** | **225,965,625** | **-** | **225,965,625** |
| BMHS-na keçidlə bağlı düzəlişlər | - | - | 1,395,270,688 | (2,549,087) | - | **1,392,721,601** |
| **01 yanvar 2020-ci il tarxə qalıq** | **-** | **-** | **1,395,270,688** | **223,416,538** | **-** | **1,618,687,226** |
| Nizamnamə Fondunda dəyişiklik | 5,000,000 | - | - | (5,000,000) | - | **-** |
| Cari ildə daxilolan transfer | - | - | 1,177,914,030 | - | - | **1,177,914,030** |
| Cari Il üçün ayrılmayan transfer | - | - | 1,005,850,796 | - | - | **1,005,850,796** |
| Daxil olan transferin xərcə silinməsi | - | - | (1,177,914,030) | 1,177,914,030 | - | **-** |
| İl üzrə məcmu gəlir/(zərər) | - | 25,077,957 | - | (1,140,107,395) | - | **(1,115,029,438)** |
| Sığorta ehtiyatı üçün ayırma | - | - | - | - | 287,044,792 | **287,044,792** |
| Sığorta ehtiyatının istifadəsi | - | - | - | - | (287,044,792) | **(287,044,792)** |
| **İl üzrə dəyişiklik** | **5,000,000** | **25,077,957** | **1,005,850,796** | **32,806,635** | **-** | **1,068,735,388** |
| **31 dekabr 2020-ci il tarixə qalıq** | **5,000,000** | **25,077,957** | **2,401,121,484** | **256,223,173** | **-** | **2,687,422,614** |

**Rəhbərlik adından**

**Himalay Məmişov**
**İdarə Heyətinin sədri**

**Ramil İbrahimov**
**Mühasibat uçotu departamentinin müdiri**

3 noyabr 2022

10-54 səhifələrdə əks etdirilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN**
*(Azərbaycan manatı ilə)*

| | | 2020-ci il |
|---|---|---|
| **CARİ ƏMƏLİYYATLARLA BAĞLI PUL AXINLARI** | | |
| **Funksional fəaliyyətlə bağlı pul axınları** | | |
| Məcburi dövlət sosial sığorta haqqları | 13 | 3,565,343,874 |
| Sanatoriya kurort yollayışlarının dəyərinin qismən ödənilməsi | | 761,200 |
| ƏƏSMN-nə köçürmələr | 21 | (1,367,925) |
| Əhaliyə ödənişlər (pensiya və müavinət) | 16,17,19 | (4,586,971,482) |
| Sanatoriya kurort müalicəsi və sağlamlaşdırma tədbirləri | | (20,470,000) |
| Pensiya və müavinətlərin əhaliyə çatdırılması xərcləri | 18 | (16,405,360) |
| DOST agentliyinin müştərək maliyyələşdirilməsi xərci | 29 | (15,800,000) |
| | | **(1,074,909,693)** |
| Dövlət büdcəsindən daxil olan transfer | | 1,177,914,030 |
| **Funskional fəaliyyət üzrə xalis pul axını** | | **103,004,337** |
| **İnzibati fəaliyyətlə bağlı pul axınları** | | |
| Əmək haqqı xərclərinin ödənişi | | (53,870,961) |
| İşçilərə sosial ödənişlər | | (356,690) |
| Mal, iş və xidmətlərin alışı | | (7,471,300) |
| Beynəlxalq təşkilatalara üzvlük haqqı ilə bağlı xərclər | 31 | (59,004) |
| Kreditin qaytarılması ilə bağlı faizlər və xərclər | 23 | (3,471) |
| **İnzibati fəaliyyətlə bağlı xalıs pul axını** | | **(61,761,426)** |
| Sair daxilolmalar xalis yekunu | 33 | 4,842,233 |
| Sair (ödənişlərin) xalis yekunu | 33 | (363,799) |
| | | **4,478,434** |
| **CARİ ƏMƏLİYYATLARLA BAĞLI XALİS PUL AXINLARI** | | **45,721,345** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ BAĞLI PUL AXINLARI** | | |
| Əmlak və avadanlıqların alışı | | (6,464,746) |
| Qeyri-maddi aktivlərin alışı | | (113,320) |
| **İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ BAĞLI XALİS PUL AXINLARI** | | **(6,578,066)** |
| **MALİYYƏ FƏALİYYƏTİ İLƏ BAĞLI PUL AXINLARI** | | |
| Kreditlərin qaytarılması (əsas məbləğ) | 23 | (400,392) |
| Kredit üzrə dövlət büdcəsinə ödənişlər | 24 | (821,367) |
| İşsizlikdən sığorta haqları – daxil olan | 14 | 130,309,769 |
| İşsizlikdən sığorta haqları - (köçürülən) | 15 | (122,390,000) |
| Digər mənbələr üzrə pul axınlarının xalis yekunu | 39 | 49 |
| **MALİYYƏ FƏALİYYƏTİ İLƏ BAĞLI XALİS PUL AXINLARI** | | **6,698,059** |
| **İL ƏRZİNDƏ XALİS PUL AXINLARI** | | **45,841,338** |
| **İLİN ƏVVƏLİNƏ PUL QALIQLARI** | | **215,383,720** |
| **İLİN SONUNA PUL QALIQLARI** | | **261,225,058** |

**Himalay Məmişov**
**İdarə Heyətinin sədri**

**Ramil İbrahimov**
**Mühasibat uçotu departamentinin müdiri**

3 noyabr 2022

10-54 səhifələrdə əks etdirilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.